Elm və təhsil naziri Emin Əmrullayev 19–21 may tarixlərində London şəhərində keçirilməkdə olan Dünya Təhsil Forumunda iştirak üçün Birləşmiş Krallıqda işgüzar səfərdədir.

Səfər çərçivəsində elm və təhsil naziri Böyük Britaniya universitetlərində dövlət təqaüdü ilə təhsil alan azərbaycanlı tələbələrlə görüşüb.

Görüşdə Emin Əmrullayev tələbələrə Azərbaycanda elm və təhsil sahəsində aparılan islahatlar və gələcək planlar barədə məlumat verib. Xüsusən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilməsi planlaşdırılan irimiqyaslı layihələrdən bəhs edən nazir növbəti tədris ilindən Xankəndidə fəaliyyətə başlayacaq Qarabağ Universiteti barədə də danışıb. Nazir bildirib ki, məqsəd bu universiteti beynəlxalq elm və tədqiqat, həmçinin Qafqazın keyfiyyətli ali təhsil mərkəzinə çevirməkdir.

Bundan əlavə, xaricdə təhsil üzrə dövlət və ikili diplom proqramları, beynəlxalq təhsil layihələri barədə məlumat verən nazir Azərbaycanda doktorantura təhsilinin inkişafı sahəsində görülən işlərdən söz açıb.

Emin Əmrullayev dövlət proqramları çərçivəsində azərbaycanlı tələbələrin daha çox dünyanın ən nüfuzlu universitetlərində təhsil almasının sevindirici hal olduğunu vurğulayıb. Nazir bu göstəricinin önümüzdəki illərdə də artan dinamika ilə davam edəcəyinə ümidini bildirib.

Görüşün sonunda nazir tələbələrin suallarını cavablandırıb, onlarla xatirə şəkli çəkdirib.